# *Duyuram ağırdır, dərindir yaran...*

*Bu qara xəbərdən qaraldı qanım,*
*Əziz dost, hamıya doğmadır bu qəm.*
*Ağrıdı ürəyim, ağrıdı canım,*
*İnsan taleyini düşündüm bu dəm.*

*Sənə gör nə deyir bu gün hər ürək*
*Əziz Heydərimiz, başın sağ olsun.*
*Həyat yollarında həmişəki tək*
*Alnın açıq olsun, üzün ağ olsun.*

*Uzaqdan-uzağa görürəm ki, mən*
*Sualsız, üzündən oxunur dərdin.*
*Əziz Zərifəndən ayrılırsan sən,*
*Hər ürək sözündən oxunur dərdin.*

*Dünyadan növbəylə köçəcəyik biz,*
*Desək ataların sözüylə, dostum.*
*Bəli, ağlayırsan səssiz-səmirsiz*
*Böyük ürəyinin gözüylə, dostum.*

*Ömrümüz boyunca əziz itkilər*
*Bizdən uzaq deyil, bağrımızdadır.*
*Bunu yaxşı bilir hər ər oğlu ər -*
*Həsrəti bu ürək ağrımızdadır.*

*Duyuram ağırdır, dərindir yaran,*
*Deyirəm ki: bu qəm, son qəmin olsun.*
*Ey sadə, ey nəcib, ey böyük insan,*
*Təsəlli ömürlük həmdəmin olsun.*

*Süleyman Rüstəm*
*15 aprel, 1985-ci il.*